**«Yeyinti məhsulları haqqında»**
**Azərbaycan Respublikası Qanunun**
**tətbiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRMANI

«Yeyinti məhsulları haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar onun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

- Qüvvədə olan qanunvericilik aktlarının «Yeyinti məhsulları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativhüquqi aktlarının bu Qanunun tələblərinə uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsinə uyğun olaraq yeyinti məhsullarına verilən sertifikatların növləri, sertifakatlaşdırma sistemi və qaydalarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- həmin Qanunun 7-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş yeyinti məhsullarının dövlət gigiyena qeydiyyatına alınması və dövlət reyestrinin aparılması qaydalarını təsdiq etsin;
- həmin Qanunun 6-cı maddəsinin birinci və ikinci hissələrində, 7-ci maddəsinin

ikinci hissəsində, 8-ci maddəsinin birinci hissəsində, 11-ci maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin beşinci hissəsində, 16-cı maddəsinin ikinci hissəsində, 17-ci maddəsinin ikinci hissəsində, 19-cu maddəsinin beşinci hissəsində, 20-ci maddəsinin birinci hissəsində və 21-ci maddəsinin onuncu abzasında nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Müəyyən edilsin ki, həmin Qanunun 7-ci maddəsinin altıncı hissəsində, 8-ci maddəsinin dördüncü hissəsində, 16-cı maddəsinin yeddinci hissəsində və 19-cu maddəsinin üçüncü, altıncı və yeddinci hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**

**Heydər ƏLİYEV**

**Bakı şəhəri, 26 yanvar 2000-ci il**

**№ 267**